*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 8 (622)

15 aprel 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Sülh gündəliyini İlham Əliyev müəyyənləşdirir

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "Sülh gündəliyini İlham Əliyev müəyyənləşdirir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

### Brüssel görüşü bir daha göstərdi ki, proseslər Azərbaycanın maraqlarına uyğun gedir

Qətiyyətli siyasəti ilə torpaqlarımızı işğaldan azad edən Prezident İlham Əliyev müdrik diplomatiyası ilə Azərbaycanın postmüharibə dövründə də zəfərlərini təmin edir. Aprelin 6-da Brüsseldə keçirilən üçtərəfli formatda növbəti görüş bunun təsdiqi oldu. İlham Əliyev əvvəlki Brüssel, habelə Moskva və Soçi görüşlərində olduğu kimi, bu dəfə də məğrur duruşu və görkəmi ilə diqqəti cəlb etdi.

### Azərbaycan mənafelərini qətiyyətlə təmin edir

Qeyd edək ki, bu, 44 günlük müharibədən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən altıncı görüş idi. Əvvəlki görüşlərin hər birinin məzmunu Azərbaycanın müharibədəki zəfərindən sonra yaratdığı yeni reallıqların mahiyyətinə uyğun olmuşdur. Münasibətlərin normallaşdırılması, regionda kommunikasiyaların bərpası istiqamətində respublikamızın təşəbbüs və təklifləri həm Avropa İttifaqı, həm də Rusiya tərəfindən dəstəklənmişdi. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyilə Brüsseldə keçirilən növbəti görüş də proseslərin Azərbaycanın maraqları çərçivəsində cərəyan etməsi baxımından növbəti uğurlu mərhələ oldu.

Görüşdə postmünaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən, 2020-ci ilin 10 noyabr Bəyanatının müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması, nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib.



Humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən, itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanaraq, Avropa İttifaqının bölgədə apardığı humanitar minatəmizləmə, eləcə də reabilitasiya və rekonstruksiya işlərinə dəstək verəcəyi qeyd olunub.

4 saat yarımdan artıq davam edən görüşün nəticəsi Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib. Bəyanatda qeyd olunur ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alınıb. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-lərinə müvafiq təlimatlar verilib. Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlanması barədə razılıq əldə olunub.

Bütövlükdə, bu görüşün nəticələri göstərdi ki, Brüsseldə sülh gündəliyinin məzmununu İlham Əliyev müəyyən edir.

Əldə olunmuş yeni razılaşmalar Azərbaycanın postmüharibə dövründə öz mənafelərini inamla təmin etməsindən xəbər verir.

### Yeni reallıqlarda Minsk qrupuna yer yoxdur

Aİ Şurasının Prezidentinin vasitəçiliyi ilə keçirilən Brüssel görüşü Azərbaycanın maraqlarına uyğun və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addım oldu. Ən mühümü də odur ki, sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Beş baza prinsipi bunlardır: dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Ümumən, Brüssel gündəliyinin əsas önəmli tərəfi Aİ-nin Azərbaycanın yaratdığı yeni reallıqları bölüşməsidir. Bunu Aİ Şurasının Prezidentinin istər ötən ilin dekabrında, istərsə də bir neçə gün əvvəl keçirilən üçtərəfli görüşlərdən sonra verdiyi bəyanatlarda Ermənistanın "status"la bağlı iddialarına yer verməməsi və artıq Azərbaycanın güc yolu ilə həll etdiyi problemin yoluna qoyulmasına bircə addım belə ata bilməyən ATƏT-in Minsk qrupuna istinad etməməsi də təsdiq edir. O cümlədən, bəyanatlarda "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə də rast gəlinmir. Bunlar da onu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində buna əsaslanır. Həmçinin, münaqişə həll olunduğuna görə keçmişin qalığı olan Minsk qrupu artıq lazımsız təsisata çevrilib.

### Aİ İlham Əliyevin regional liderliyini qəbul edir

Görünən həm də odur ki, artıq Aİ-nin dəstəyilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb. Bu baxımdan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində Aİ-nin obyektiv mövqeyini qeyd etmək lazımdır. Şarl Mişelin iki dövlət arasındakı münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüsləri tamamilə tərəfsizdir və bir vaxtlar Minsk qrupunun həmsədrlərinin ortaya qoyduqları mövqedən tamamilə fərqlənir. Aİ Şurası Prezidentinin istər ötən ilin dekabrındakı görüşdə, istərsə də son görüşdə verdiyi bəyanatların məzmunu bir vaxtlar Minsk qrupunun həmsədrlərinin hər addımda ortaya qoyduqları ikili standartlardan uzaqdır və münasibətlərin normallaşdırılması üçün konkret hədəfləri ehtiva edir. Əlbəttə ki, bu da Aİ-nin timsalında Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasına hesablanmış vasitəçilik missiyasına olan etimadı təmin edən mühüm amildir.

Onu da qeyd edək ki, Aİ İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olunmasında mühüm amil kimi görür. Bu amil, o cümlədən, Azərbaycanla Aİ arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunun daha da yüksəlməsi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Bütövlükdə, Brüssel görüşü regionda münasibətlərin normallaşdırılması baxımından əhəmiyyətli hadisədir, Azərbaycanın siyasi-diplomatik uğurudur. Brüssel sülh gündəliyi həm də Ermənistanın müxtəlif iddialarla üçtərəfli razılaşmaları tələb etdiyi prosesləri ləngitmək cəhdlərinin iflasa uğramasından xəbər verir.

# DAXİLİ İŞLƏR NAZİRİ VİLAYƏT EYVAZOV VƏTƏNDAŞ QƏBULU KEÇİRİB





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 30-da Lənkəran Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Daha sonra Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasında Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının 71 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq belə qəbulların təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına, həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

*Ardı 2-ci səhifədə*

# DAXİLİ İŞLƏR NAZİRİ VİLAYƏT EYVAZOV VƏTƏNDAŞ QƏBULU KEÇİRİB







*Əvvəli 1-ci səhifədə*

Səfər çərçivəsində nazir Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Lənkəranda yerləşən hərbi hissəsində də olub.

General-polkovnik V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub, həmçinin, xüsusi-taktiki təlimləri izləyib. Polis əməkdaşlarının və hərbi qulluqçuların peşə və döyüş hazırlığını yüksək qiymətləndirən nazir öz tapşırıq və tövsiyələrini verib.

Daha sonra general-polkovnik V.Eyvazov Lənkəran Şəhər-Rayon Polis Şöbəsində bölgə üzrə polis orqanlarında və Daxili Qoşunlarda vakant olan vəzifələrə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf şəhər və rayonlarda yaşayan, polis orqanlarında və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Daxili işlər orqanlarında xidmətə qəbulun şərtlərinə uyğun gələn 46 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 10-u Vətən müharibəsi iştirakçısı, 6-sı isə şəhid ailələrinin üzvləri olublar.

**DİN-in Mətbuat xidməti**

# “HƏDƏFİMİZ HƏR ZAMAN İRƏLİDƏ OLMAQDIR”

## 12318 saylı hərbi hissənin yüksək döyüş hazırlığı, xidməti fəaliyyəti ilə fərqlənən bölməsi

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın göstərilən istiqamətlərdə həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

12318 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində fədakarlıq göstərirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Hərbi hissədə ezamiyyətdə olarkən dəstənin şəxsi heyətinin nümunəvi xidmət apardığının bir daha şahidi olduq. Hərbi hissə komandiri polkovnik-leytenant Emil Rüstəmov xüsusi təyinatlı dəstənin 2022-ci ilin mart ayında hərbi intizamın və qoşun xidmətinin yekunlarına görə hissə üzrə birinciliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Dəstə komandiri polkovnik-leytenant Anar Rizvanovun sözlərinə görə, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Vəzifə borclarından irəli gələn tələblərdən danışan dəstə komandiri hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyət təlim tapşırıqlarını bacarıqla icra edir. Döyüş təlimi zamanı bölmələrin hərbi qulluqçularının diqqət yetirməli olduqları əsas məqamlardan söz açan polkovnik-leytenant A.Rizvanov bildirdi ki, təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər şəxsi heyətin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil edilir. Aparılan uğurlu xidmətin nəticəsidir ki, cari ilin birinci rübündə hərbi intizamın və qoşun xidmətinin vəziyyətinə görə bölmələr arasında xüsusi təyinatlı dəstə fərqlənib.

Xüsusi vurğulandı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı







döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, nizam-intizamın möhkəmləndirilməsi, sayıqlığın artırılması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi üçün komandir heyəti əlindən gələni əsirgəmir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, fəal və qətiyyətli fəaliyyətin göstərilməsi də diqqət mərkəzində saxlanılır.

Şəxsi heyətin gündəlik fəaliyyəti daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlədesant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Dözümlülüyü artırmaq məqsədilə fiziki hazırlıq məşğələsində qısa və uzaq məsafələrə qaçış, həmçinin, maneələr zolağının keçilməsi məşq etdirilir.

Xüsusi təyinatlı dəstənin şəxsi heyətinin istifadəsində olan döyüş texnikasını bacarıqla və peşəkarcasına idarə edə bilməsi üçün müxtəlif relyefdə və hava şəraitində məşğələlər keçirilir. Yaşayış məntəqəsində və çoxmərtəbəli binalarda döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı çevik və peşəkar fəaliyyət göstərilməsi üçün məşqlərdə alpinist qülləsindən istifadə olunur.

Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsinə hazırlıq olduğunu deyən polkovnik-leytenant A.Rizvanov qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: “Cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən, müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən, döyüş qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Hədəfimiz daim irəlidə olmaq, hərbi hissənin bölmələri arasında qazandığımız birinciliyi qoruyub saxlamaqdır”.





“Yarasa” şərti adını daşıyan xüsusi təyinatlılarımız təlimdə qazandıqları təcrübi biliklərin təsdiqini ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə etdilər. Qeyd edək ki, Vətən müharibəsində fədakarcasına iştirak edən xüsusi təyinatlı dəstənin şəxsi heyətindən 9 nəfər şəhidlik zirvəsinə yüksəlib, 35 nəfər yaralanıb. Onların Şuşaya kimi uzanan döyüş yolu həm fəxarətli, həm də kədərli xatirələrlə doludur. Bu yolda tək amalı düşməni diz çökdürmək, doğma torpaqlarımızı məkrli, hiyləgər erməni işğalçılarından təmizləmək olan xüsusi təyinatlılarımızın göstərdikləri qəhrəmanlıqlar nəinki bizə, həm də bütün dünyaya bəyan olub. Düşmənin onlarla canlı qüvvəsinin məhv edilməsində yaxından iştirak edən hərbi qulluqçulardan yarımqrup komandiri baş çavuş Bəhruz Nəcəfov və snayper yarımqrupunun komandiri baş çavuş Rəhim Rəhimovun adlarını çəkən polkovnik-leytenant A.Rizvanov yüksək döyüş hazırlığına malik “yarasa”ların rəhbərlik etdikləri hərbi qulluqçuların fiziki və atəş hazırlıqlarının istənilən səviyyədə olduğunu diqqətə çatdırdı. Bu müharibədə zabitlərlə çiyin-çiyinə addımlayan, komandirlərinin hər bir döyüş tapşırığını sözsüz icra edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının Vətənə olan borcunu ləyaqətlə verdiklərini sözlərinə əlavə etdi.

Xüsusi təyinatlı dəstədə hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşən Məmmədovun əməyi danılmazdır. Hər birimizə məlumdur ki, hərbi qulluqçuların döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri də onların mənəvi-psixoloji durumudur. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda, tərbiyə işinin təşkili istiqamətində fərdi yanaşma prinsipinə üstünlük verən mayor E.Məmmədov hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara tələbkar və qayğıkeş münasibətlə yanaşı, hər bir hərbçinin psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 13.04.2022 15:52 Page 1



*Şəhidlərimiz*

# VƏTƏNPƏRVƏRLİYİ VƏ DÖYÜŞKƏNLİYİ İLƏ ÖN CƏBHƏDƏ SİLAHDAŞLARINA ÖRNƏK OLDU...

44 günlük Vətən müharibəsi xalqımızın yaddaşında qəhrəmanlıq səhifəsi kimi iz qoymaqla, ölkəmizin adını hərb tarixinin qürurlu zirvəsinə ucaltdı. İşğalçı Ermənistanın xarici havadarlarının dəstəyilə Birinci Qarabağ müharibəsi zamanı bir neçə il ərzində ələ keçirdiyi torpaqlarımız 44 gün müddətində yenilməz Silahlı Qüvvələrimiz tərəfindən rəşadətlə azad olundu. Döyüş meydanında darmadağın edilən düşmənin özü haqqında uzun illər yaratdığı miflər, onun xülyaları bu məğlubiyyəti ilə birgə çökdü.

Azərbaycanın böyük hərbi zəfəri xalqımıza qurbanlar bahasına başa gəlib. Heç bir müharibə itkisiz olmur. Bu, acı bir həqiqət olsa da, şəhidlərin və qazilərin qanı tökülmədən erməni tapdağında qalmış yurdlarımıza qovuşa bilməzdik.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhid olan hərbi qulluqçularından biri – baş çavuş Cəfərov Səid Zəfər oğlunun ömür yolu haqqında ailəsindən və silahdaşlarından məlumatlar topladım. O, 1993-cü ilin fevral ayının 4-də Neftçala rayonunun Xolqarabucaq inzibati ərazi dairəsinə daxil olan Dördlər kəndində doğulub. Zəfər Cəfərov və Könül Cəfərovanın üç övladından ortancılı idi. Zəhmətkeş ailədə böyüyərək boya-başa çatan Səid milli dəyərlərimizə ehtiram ruhunda tərbiyə alıb. Xaraktercə səbirli, təmkinli, qayğıkeş, ailəcanlı olub, öz üzərində çalışmağı üstün tutub, əldə etdiyi uğurla kifayətlənməyib.

Babası Cəfər Cəfərov 1941-1945-ci illərdə faşistlərə qarşı igidliklə vuruşub, Berlinə qədər keçən döyüş yolunda medallarla təltif edilib. Dayısı Əkbər Muradov isə Birinci Qarabağ müharibəsi zamanı zabit olaraq ön cəbhəyə könüllü gedib, döyüşlərdə ağır yaralanıb, I qrup əlildir.

Mürsəqulu kənd şəhid İlqar Səfərov adına tam orta məktəbinin məzunu olan Səidə müəllimləri vətənpərvərlik əqidəsi aşılayıblar. Müəllimlərinin və yoldaşlarının hörmətini qazanıb. Məktəbdə fəal olub, dəqiq fənlərə maraq göstərib, bədən tərbiyəsi fənninə isə çox həvəslə yanaşıb. Fiziki hazırlığını diqqətdə saxlayıb. İdmanın kikboksinq növü üzrə davamlı məşq edib.

Hələ məktəb illərindən o, hərbçi peşəsinə rəğbət bəsləyib, ali hərbi təhsil almağı arzulayıb. Ancaq orta məktəbdən sonra Silahlı Qüvvələrin Ali Hərbi Məktəbinə qəbul üçün sənədlərini versə də, imtahandan keçə bilməyib. Bununla belə, hərbçi olmaq arzusundan imtina etməyib. Müddətli həqiqi hərbi xidmətə gedənədək ailəyə maddi kömək etmək üçün bir müddət kənd təsərrüfatı sahəsində işləyib.

2011-ci ilin aprel ayında Səid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi andı qəbul edib, rabitəçi kursunu bitirərək rabitə bölməsində radioteleqrafçı vəzifəsində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin oktyabr ayında ehtiyata buraxılıb.

Hərbçi peşəsinə marağı müddətli həqiqi hərbi xidmətdən sonra daha da artıb. Xüsusi təyinatlı bölmənin tərkibində xidmət etmək niyyətini doğmaları və yoldaşları ilə



bölüşüb. Hərbi xidmətə qəbul olunmaq məqsədilə ayrı-ayrı qoşun növlərinin fəaliyyəti barədə məlumatlara diqqət yetirib. Nəhayət, öz seçimini edərək, Daxili Qoşunların komandanlığına ərizəsini ünvanlayıb.

2013-cü ilin iyun ayının 4-də Səid Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayaraq 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı vəzifəsinə təyin olunub. Həmin dəstədə baş atıcı, bundan əlavə, əlahiddə patrul bölüyünün xüsusi həmlə qrupunda atıcı vəzifələri də ona həvalə edilib. Sonra 99713 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə və əməliyyat qruplarında atıcı, pulemyotçu-atıcı vəzifələrində bacarıqlı hərbi qulluqçu kimi qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib. Təyin olunduğu bütün vəzifələrdə komandanlığın etimadını doğruldub, dəfələrlə mükafatlandırılıb. Daxili Qoşunların sıralarında "baş çavuş" hərbi rütbəsinədək yüksəlib. Komandirləri tərəfindən həmişə müsbət xarakterizə olunan Səid harada xidmət edibsə, orada öz hörməti ilə fərqlənib.

2019-cu ilin sentyabr-oktyabr aylarında Səid qardaş Türkiyə Respublikasına ezam edilərək paytaxt Ankarada yerləşən Jandarm Özəl Asayiş Komandanlığına məxsus tədris mərkəzində xüsusi əməliyyatların aparılması üzrə təlim kursu keçib. Bu təlim kursunda o, öz peşə hazırlığı və məharətini təkmilləşdirib, yeni biliklərə, qabaqcıl təcrübəyə yiyələnib.

2020-ci ilin sentyabr ayının 27-də - Vətən müharibəsinin ilk günündən etibarən Səid ön cəbhədə düşmənə qarşı qətiyyətlə vuruşub. Xüsusi təyinatlının şərəfli döyüş yolu Murovdağdan başlayaraq Şuşayadək davam edib. Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti ilə birgə Daxili Qoşunların xüsusi təyinatlıları bir neçə istiqamətdə döyüş əməliyyatlarına cəlb olunublar.

Vətən müharibəsi iştirakçısı, 25033 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini – qərargah rəisi kapitan Elnur Qasımov bildirdi ki, 2017-ci ildən Səidlə 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edərək onun qrup komandiri olub. Silahdaşının məsuliyyətli, intizamlı, səliqə-sahmanlı, kollektivdə xoş ovqat yaradan hərbi qulluqçu olduğunu, dəstədə nümunəvi xidməti ilə seçildiyini diqqətə çatdırdı.

Zabit məlumat verdi ki, Səid Vətən müharibəsi zamanı ön cəbhədə xüsusi təyinatlıya xas peşəkarlıqla döyüşüb. Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində işğalçıların mövqelərinə həmlələr edilərkən döyüşçü yoldaşları ilə birlikdə onlara qan uddurub. Pulemyot silahından məharətlə atəş açaraq təcavüzkarın bir sıra atəş nöqtələrini susdurub, postlarda erməni canlı qüvvəsini ciddi itkiyə məruz qoyub. Hadrut qəsəbəsi və ətraf yüksəkliklərin işğaldan azad olunmasında mətinlik nümunələri ilə yadda qalıb. Düşmənin bir neçə hərbi avtomobildən ibarət karvanının pusquya salınaraq sıradan çıxarılması, 30 nəfərədək erməni hərbçisinin məhv edilməsində pulemyotçu kimi xüsusi rolu olub. Bundan əlavə, Elnurun sözlərinə görə, Səid Ərgünəş yüksəkliyi, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi, Tuğ kəndi, Xocalı rayonunun Quşçubaba, Çanaqçı və Sığnaq kəndləri istiqamətlərində də döyüş tapşırıqlarını cəsurluqla yerinə yetirib. Şuşayadək döyüşlərin gedişində Səidin tərkibindəki bölmədə digər pulemyotçuların şəhid olması və yaralanması səbəbindən onun pulemyot silahı ilə döyüşçülərə atəş dəstəyi işğalçılara mühüm zərbə idi. Pulemyotun və sursat ehtiyatının ağır olmasına baxmayaraq, Səid bu silahını başqa silahla dəyişməyib, kömək istəməyib, 30 döyüşədək özü daşıyıb. Bütün döyüş yolu boyu silah və sursatını atəşə hazır vəziyyətdə saxlayıb.

Kapitan E.Qasımov qeyd etdi ki, Səid noyabrın 5-də Laçın-Şuşa yolunda döyüş zamanı ilk dəfə mərmi qəlpələrindən yaralanıb. Ehtimalına görə, müvəqqəti sığınacaqdan növbəti günlərdən birində təxliyyə edilərkən yenidən atəşə məruz qalaraq ağır yaralanma nəticəsində döyüşdə şəhadətə qovuşub. Həmin vaxt qoşunların hərbi qulluqçularından onun yanında heç kim olmayıb.

99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi əməliyyat qrupunun yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı gizir Eldar Məmmədov da Səid haqqında xatirələrini danışdı. Bildirdi ki, o, vətənpərvər və cəsarətli, döyüşə hazırlıqlı hərbi qulluqçu, etibarlı silahdaş olub. Birlikdə təlimlərdə və müxtəlif xidməti tapşırıqların icrasında iştirak ediblər. Xüsusi təyinatlının zoğalı berete layiq görüldüyünü dedi. Eldarın sözlərinə görə, Səid müharibədə ruh yüksəkliyi və qələbəmizə inamla döyüşüb: "Biz onun pulemyotuna "qara camış" adını qoymuşduq, silahı ilə döyüşçülərimizi neçə dəfə çətin vəziyyətdən çıxarmışdı. Laçın dəhlizində minaatan mərmisinin partlaması nəticəsində hər ikimiz yara-



lanmışdıq, ona ilk yardım göstərmişəm. Həmin yaralanmadan sonra Səidi bir də görmədim. Bir neçə gün keçdikdə şəhid olması xəbərindən sarsıldım".

99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı çavuş Tariyel Məhəmmədov da Səidin döyüşlərdə şücaət göstərdiyini, müharibənin əziyyətlərinə dözümlə yanaşdığını söylədi. Murovdağda düşmənin müdafiə üçün möhkəmləndirilmiş postlarından birinin nəzarətə götürülməsi, eləcə də ayrı-ayrı istiqamətlərdəki yaşayış məntəqələri, yüksəkliklərin azad olunması, işğalçıların hücumlarının qarşısının alınmasında döyüşkənliyi ilə yoldaşlarına örnək olduğunu vurğuladı.

Müdafiə Nazirliyinin Vətən müharibəsi iştirakçısı olan "gizir" hərbi rütbəli xüsusi təyinatlılarından birinin Cəfərovlar ailəsinə verdiyi məlumata görə, Səid noyabrın 7-də Şuşa uğrunda döyüşlərdə iştirak edərkən snayper gülləsindən ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. Ailənin dediyinə görə, həmin xüsusi təyinatlının verdiyi bu məlumat şəhidin nəşinə baxış keçirilərkən öz təsdiqini tapıb.

15 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə Səidin 9 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və ya qəlpələrə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 12-də doğma kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş S.Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Xolqarabucaq inzibati ərazi dairəsindən Birinci Qarabağ müharibəsində 12 nəfər, Vətən müharibəsində isə 3 nəfər şəhidlik zirvəsinə ucalıb.

Mərhumun qohumları Samir Abbasov və Mais Səfərov Vətən müharibəsində şəhadətə ucalıblar. Dördlər kəndində şəhidin adına küçə var, şəkli əks olunan plakat quraşdırılıb. Mürsəqulu kənd tam orta məktəbində şəhid xüsusi təyinatlının xatirə guşəsi yaradılıb, şəhidlərə aid fotostenddə şəkli mövcuddur, 11-ci sinfə isə adı verilib. Xırdalan şəhərindəki 9 saylı tam orta məktəbin 4i sinfi Səidin adını daşıyır.

"Qələbə şəhidləri" nəşrində döyüşçü haqqında məlumat öz əksini tapıb. Şair-publisist Sevindik Nəsiboğlunun Səidə həsr etdiyi "Zəfərin oğlu" məqaləsi "Kredo" qəzetində, afia.az saytında dərc olunub, "Möhtəşəm Zəfərin nişanəsi" kitabında işıq üzü görüb. Televiziya kanallarında şəhid haqqında süjet və verilişlər hazırlanıb.

Dördlər kəndində ailəsinin yaşadığı evdə Səidin xatirə guşəsi düzəldilib. Səidin yoxluğu ilə barışmaq valideynləri, bacı və qardaşı üçün çox çətindir, onunla bağlı unudulmaz xatirələri var. Qardaşı Seymur ilə son söhbətində Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətlə əlaqədar məslətətlər verib (Seymur 16077 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət keçib), ailənin qayğısına qalmağı tapşırıb. Ön cəbhədən evə zəng vurub, telefon danışıqlarından birində bacısı Aygünə "mən şəhid olduqdan sonra zəfər çalsaq, hərbi formamı geyinib Zəfər paradında iştirak edərsən" deyib. Sonuncu dəfə telefonla anası ilə danışıb, "ana, sağ olasan, özündən muğayat ol" söyləyib. Vətən müharibəsində torpaqlarımızın işğalına son qoyulması, şəhidlərimizin qisasının alınması şəhidin ailəsinə yaşamağa mənəvi güc verən amillərdir.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov şəhidin ailəsinə qayğı göstərərək Səidin bacısı Aygünün və qardaşı Seymurun polis orqanlarına xidmətə qəbuluna dair göstəriş verib. Onlar bu gün polis əməkdaşlarıdır.

S.Nəsiboğlunun Səid haqqında yazdığı "Zəfərin oğlu" şeirində belə misralar var:

***Şuşa dağlarından dumanı çəkdi,***
***O, quruyan xarıbülbülü əkdi,***
***Öz Topxana meşəmizi dirçəltdi,***
***Zəfəri dadandır Zəfərin oğlu.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "FƏXR EDİRƏM Kİ, TORPAQLARIMIZIN AZAD OLUNMASINDA MƏN DƏ İŞTİRAK ETMİŞƏM"

Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur xüsusi təyinatlıları fəal iştirak edərək, əsl qəhrəmanlıq nümunələri göstəriblər. Qazanılan qələbəyə öz layiqli töhfələrini verən igid silahdaşlarımızı tanımaq, həmçinin, onların nümunəvi xidmətini təbliğ etmək hər birimizin vətəndaşlıq borcudur.

Beləliklə, "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı baş çavuş Əhmədov İbrahim İntiqam oğludur.

Baş çavuş İbrahim Əhmədov 1996-cı il yanvarın 29-da Ağdaş rayonunun Aşağı Qəsil kəndində anadan olub. İbrahim ibtidai təhsilini doğulub boya-başa çatdığı Aşağı Qəsil kənd məktəbində alıb. Sonradan təhsilini 9-cu sinfədək şəhid Ceyhun Həsənov adına Qulbəndə kənd orta məktəbində, 10-11-ci sinifləri isə şəhid Ramiz Hacıyev adına Yuxarı Qəsil kənd tam orta məktəbində davam etdirib.

Müddətli həqiqi hərbi xidmətini 2014-cü ilin iyul ayından 2016-cı ilin yanvar ayınadək Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbi xidmətə böyük marağı olduğundan yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, 2016-cı ilin may ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin "Qartal" xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Burada müxtəlif vəzifələrdə xidmətini davam etdirən İbrahim 2020-ci il iyul ayından yaralandığı günədək hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda pulemyotçu kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidməti ilə hər zaman hərbi hissə komandanlığının etimadını doğruldub.

Doğma Qarabağımızı düşmən tapdağından azad etmək və üçrəngli bayrağımızı burada ucaltmaq bir xüsusi təyinatlı kimi baş çavuş İ.Əhmədovun ən böyük arzusu olub. Buna görə də Kəlbəcər, Füzuli və Cəbrayıl rayonlarının azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak edib. Onun döyüş yolu qısa olsa da, iştirak etdiyi hərbi əməliyyatlarda vətənpərvər döyüşçü kimi fərqlənib. Döyüş yolu 2020-ci il sentyabrın 27-də Murovdağ silsiləsinin Orta Camış yüksəkliyi istiqamətindən başlayıb. Vətən Müharibəsi Qəhrəmanı mayor Nicad Bədəlovun rəhbərliyi altında tərkibində İbrahimin də olduğu qrupun şəxsi heyəti Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birgə erməni silahlılarını məhv edərək, düşmənin bir neçə postunu tutmağa müvəffəq olub. Özünün də qeyd etdiyi kimi, dörd gün burada qaldıqdan sonra, sentyabrın 30-da azad etdikləri mövqeləri Müdafiə Nazirliyinin digər bölmələrinə təhvil verərək, Füzuli istiqamətinə gətiriliblər: "Oktyabrın 1-də axşam saatlarında qrupumuz Arazboyu və Lələtəpə istiqamətindən uğurlu hücum əməliyyatı keçirərək,



heç bir itki vermədən düşmənin qarşıda yerləşən əsas mövqelərini tutmağa müvəffəq oldu. Düşmənin itirdiyi mövqeni geri qaytarmaq üçün göstərdiyi əks-hücum cəhdləri isə heç bir nəticə vermədi. Əksinə, döyüşçülərimizin qətiyyəti sayəsində ermənilər canlı qüvvə sarıdan böyük itki verərək geri çəkilməyə məcbur oldular.

Növbəti tapşırığımız Cəbrayıl şəhərinin azad olunması idi. Ən qızğın döyüşümüz oktyabrın 5-də məhz bu istiqamətdə oldu. Qrupumuzun şəxsi heyəti digər qrupların cəsur xüsusi təyinatlıları ilə birgə düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, ermənilləri ağır məğlubiyyətə düçar etdi. Bizim qrupun şəxsi heyətindən şəhid olmasa da, təəssüflər olsun ki, digər bölmələrdən şəhid və yaralılarımız oldu.

Ağır məğlubiyyətlə barışmaq istəməyən düşmən olduğumuz mövqeləri artilleriyadan və digər növ silahlardan atəşə tuturdu. Oktyabrın 6-da, təxminən səhər saat 10:00-da məhz düşmənin atdığı "Qrad" mərmisinin yaxınlığımıza düşməsi nəticəsində sağ bel nahiyəmdən, ayağımdan ağır qəlpə yarası və partlayış travması aldım. Bu zaman xeyli şəhid və yaralılarımız oldu. Şəhid olmuş silahdaşlarımızdan biri də 67987 saylı hərbi hissənin xüsusi təyinatlısı baş çavuş Əsgər Əhmədov idi. Onunla aramızda təxminən 4-5 metr məsafə olardı. Bu zaman çavuş Şamil Qədirov mənə ilk tibbi yardım göstərdi. Sonra digər döyüşçü yoldaşlarım - baş çavuşlar Samir Mirzəyev və Elçin Nadirov mənim bir qədər geriyə - nisbətən təhlükəsiz əraziyə gətirilməyimə yardım etdilər".

Hazırda 2-ci qrup müharibə əlili olan İbrahim çiyin-çiyinə vuruşduğu yoldaşlarının bir qisminin döyüşlər zamanı həlak olmasına və ağır yaralanmasına görə üzülsə də, şəhid və qazilərimizin intiqamının alınmasından, həmçinin, qazanılan parlaq qələbədən qürur duyduğunu bildirdi.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 18.12.2020-ci il, 29.12.2020-ci il, 24.06.2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Əhmədov İbrahim İntiqam oğlu "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", eləcə də Azərbaycan Respublikası müdafiə nazirinin 03.11.2020-ci il tarixli müvafiq əmri ilə "Şücaətə görə" medalları ilə təltif edilib.

Bundan əlavə, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, xüsusi təyinatlı əzmkarlığı ilə döyüş əməliyyatlarındakı fəal iştirakına görə təltif edildiyi zoğalı bereti İbrahim bu gün də böyük qürur hissi ilə daşıyır.

Qeyd edək ki, İbrahimin qardaşı İlham Əhmədov da Vətən müharibəsi iştirakçısıdır. Könüllü olaraq döyüşlərə qatılan İlham Füzuli, Cəbrayıl və Qubadlı rayonları ərazisində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib. Qazimizin atası İntiqam Əhmədov isə Birinci Qarabağ müharibəsi veteranıdır. İntiqam dayı vətənpərvər ruhda böyüdüb tərbiyə etdiyi hər iki övladı ilə fəxr etdiyini bildirərək, torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa dilədiyini dedi.

2019-cu ilin oktyabr ayında ailə həyatı quran İbrahimin Dəniz adında bir qız övladı var. Vətən qarşısında şərəfli borcunu layiqincə yerinə yetirən qazimizə bundan sonrakı həyatında uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

# "RABİTƏÇİLƏRİN BİLİK VƏ BACARIQLARININ ARTIRILMASI ƏSAS MƏQSƏDİMİZDİR"

İstər xüsusi əməliyyatlarda, istərsə də respublikamızda keçirilən beynəlxalq tədbirlər zamanı qarşıya qoyulan tapşırıqların vaxtında və uğurla icra edilməsində peşəkar rabitəçilərimizin müstəsna xidmətləri var. Ən müasir rabitə avadanlıqları ilə təchiz edilən Daxili Qoşunların Dayaq rabitə qovşağı da döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlayır.



Dayaq rabitə qovşağının rəisi mayor Abbasəli Mehdiyevlə söhbət zamanı məlum oldu ki, daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının müvafiq əmri ilə təsdiq edilmiş "Dayaq rabitə qovşağının şəxsi heyətinin döyüş və ictimai-siyasi hazırlıq proqramı"na, eləcə də təqvim planına uyğun olaraq, hər həftənin cümə axşamı günləri bütün şəxsi heyətlə radiomeşğələ keçirilir. Məşğələnin keçirilməsində əsas məqsəd rabitəçilərin bilik və bacarıqlarının artırılması, qazandıqları təcrübədən səmərəli istifadə edərək hər an qarşıya çıxa biləcək tapşırıqların öhdəsindən layiqincə gəlməkdir. Radiomeşğələ zamanı Daxili Qoşunların Baş İdarəsi, eləcə də bütün hərbi hissələr üzrə rabitə vasitələrinin sazlığı və mövcudluğu yoxlanılır.



Mayor A.Mehdiyev onu da əlavə etdi ki, məşğələlər əsasən komanda-qərargah maşınının ekipajlarının yoxlanılması, maşının döyüş hazırlığı vəziyyətinə gətirilməsi, kabellərin açılması, cütlüklərə ayrılması, paylayıcı qutulara yığılması və abunəçilərə paylanılması qaydaları, kross jurnalının işlənmə qaydası, naqil rabitə vasitələri, müxtəlif növ telefon kabelləri ilə praktiki iş və digər mövzularda təşkil olunur. İxtisas üzrə yeni mövzular ətrafında hazırlıqlarını daim artıran rabitəçilərimiz məşğələlər zamanı həm də müasir qurğulardan istifadə qaydalarını praktiki mənimsəyirlər. Məşğələdə ilk olaraq şəxsi heyətin mövcudluğu, plan-konspektlərin hazırlıq səviyyəsi yoxlanılır, respublikamızda baş verən mühüm ictimai-siyasi hadisələr barədə, daha sonra Daxili Qoşunlarda istifadə edilən rabitə vasitələri haqqında şəxsi heyətə ətraflı məlumat verilir.

Bundan əlavə, hər ayın üçüncü həftəsinin şənbə günləri bütün növ rabitə vasitələrinə 1 nömrəli texniki qulluq göstərilir.

Onu da qeyd edim ki, Dayaq rabitə qovşağının bir sıra hərbi qulluqçuları döyüş bölgəsində bölmələr arasında qarşılıqlı radiəlaqəni təmin etmək məqsədilə elə ilk günlərdən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsində iştirak ediblər. Bu zaman bütün növ radiorabitə əlaqələri fasiləsiz təmin olunub, rabitə vasitələrinə yeni çağırışlar yazılaraq, döyüş meydanında olan şəxsi heyətə çatdırılıb. Həmçinin, Daxili Qoşunların Baş İdarəsində baş idarəetmə məntəqəsi açılıb, döyüş bölgəsindən olan informasiyalar, eləcə də hərbi vəziyyətlə bağlı xidmətaparma yerlərində baş vermiş hadisələr haqqında məlumatlar toplanaraq komandanlığa təqdim edilib. İdarəetmə məntəqəsində fəaliyyət göstərən hərbi qulluqçular xidmətlərində sayıqlıq göstərərək verilən tapşırıqları layiqincə yerinə yetiriblər.

Biz də öz növbəmizdə, Dayaq rabitə qovşağının şəxsi heyətinə yerinə yetirməkdə olduğu məsuliyyətli vəzifələrin icrasında uğurlar arzu edirik.

**kapitan Xədicə Hacızadə**

NÜMUNƏVİ XİDMƏT

# ÖZ SAHƏSİ ÜZRƏ TƏCRÜBƏLİ ZABİT

Bu gün gündəmin aktual mövzularından biri müasir cəmiyyətimizin ayrılmaz hissəsi olan gənclərimizin gələcək üçün düzgün istiqamətdə yetişdirilməsidir. Onların vətənpərvər ruhda formalaşmaları və Vətənin keşiyində daim ayıq-sayıq dayanmaları çox önəmlidir. Bunun üçün onların zərərli vərdişlərdən uzaq durmaları və bu istiqamətdə mütəmadi olaraq söhbətlərin aparılması, hərbi xidmət ənənələrinin aşılanması Daxili Qoşunlarda xidmət edən komandir heyətinin əsas vəzifəsidir. Məhz bu kontekstdə hissələrimizdə hərbi qulluqçuların fiziki hazırlığının inkişaf etdirilməsində əməyi olan fiziki hazırlıq və idman rəislərinin işi təqdirəlayiqdir.



99713 saylı hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə edilən fiziki hazırlıq və idman rəisi mayor Ayaz Hüseynovun xidməti fəaliyyəti ilə yaxından tanış oldum. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elsevər Fətəliyev onun öz sahəsi üzrə kifayət qədər bacarıqlı zabit olduğunu və şəxsi heyətin fiziki hazırlığının yüksəldilməsi istiqamətində mütəmadi olaraq çalışdığını nəzərimizə çatdırdı.

Mayor A.Hüseynov 1978-ci il iyulun 11-də Şamaxı rayonunda doğulub. 1996-cı ildə Şamaxı rayonunun Talışnuru kənd orta məktəbini bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Pedoqoji Universitetinin ibtidai hərbi və fiziki təlim fakültəsinə qəbul olunub. Ali təhsilini 2000-ci ildə başa vuran Ayaz 2001-ci ildə "leytenant" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul olunub. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. 2003-cü ildə həqiqi hərbi xidmətini başa vuran leytenant A.Hüseynov artıq öz həyatını hərbi xidmətə bağlamağa qərar verib. Beləliklə, 2004-cü ildə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində taqım komandiri vəzifəsinə təyin olunub.

2020-ci ilə kimi müxtəlif vəzifələrdə xidmətini davam etdirən zabitimiz həmin ildən hazırkı vəzifədədir.

Vəzifələrinin icrasında daim təşəbbüskarlıq və hərbi qulluqçularla keçirilən idman tədbirlərində düzgün metodika nümayiş etdirməsi cari ilin əvvəlində Daxili Qoşunlarda ağırlıq çəki daşı qaldırma və atıcılıq üzrə yarışlarda hərbi hissənin fərqlənməsinə səbəb olub. Belə ki, qoşunlar üzrə keçirilən hər iki yarışda birinciliyi qazanan hərbi hissəyə daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi tərəfindən keçici kubok və fərman təqdim olunub.

"Əsgər" qəzeti olaraq biz də öz növbəmizdə, qazanılan nailiyyət münasibətilə hərbi hissənin komandanlığını və mayor A.Hüseynovu təbrik edir, uğurlarının daimi olmasını arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ HİSSƏNİN ƏSGƏR YEMƏKXANASINDA BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ QƏNAƏTBƏXŞDİR

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 12318 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli və kalorili qidalanmasıdır. Hərbi hissə komandanlığının daima nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti demək olar ki, tələblərə cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman diqqətimi cəlb etdi. Əsasən də bu gün pandemiya şəraitində olan ölkəmizdə hərbi hissənin şəxsi heyətinin bu rejimə ciddi əməl etməsi təqdirəlayiq haldır. Belə ki, yeməkxanada görülən bir sıra vacib tədbirlərlə yanaşı, hərbi qulluqçular arasında sosial məsafənin saxlanılması, maskalardan və dezinfeksiyaedici məhlullardan istifadə edilməsi hərbi hissə komandanlığının sözügedən məsələyə ciddi nəzarətinin nəticəsidir. Sözsüz ki, hərbi qulluqçuların belə təmiz şəraitdə qidalanmaları onlara göstərilən diqqət və qayğının təzahürüdür.



Bu sahədə görülən işlərdə böyük zəhməti olan hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Şahin Şirinov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının daxili işlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi qalyanaltılar və meyvə şirələri də qida rasionuna daxildir. Yeməkxanada tələb olunan qaydaların gözlənilməsində böyük əməyi olan təminat bölüyündə yeməkxana rəisinin vəzifəsini icra edən baş çavuş Vüsal Əliyevin adını çəkən kapitan Ş.Şirinov onun ərzaqların saxlanılması və emalına, ərzaq anbarında texnoloji, soyuducu və qeyri-mexaniki avadanlıqların sazlığına nəzarət etdiyini söylədi.

Ərzaq xidməti rəisinin sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu məqsədlə, aidiyyəti kurs keçmiş əsgər aşpazlarla bərabər, işçi qadınların əməyindən də istifadə olunur. İstər mülki, istərsə də əsgər aşpazların təlimatlandırılmalarında, xörəklərin bölgü cədvəlinə uyğun olaraq düzgün hazırlanmasında aşpaz-təlimatçı çavuş Əmrah Musayevin rolu böyükdür.

Xidmətə yeni gələn əsgər aşpazların fəaliyyətini müsbət xarakterizə edən kapitan Ş.Şirinov müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları: əsgərlər Qalib Məmmədov, Samir Bəşirovun nümunəvi olduqlarını söylədi.

Mülki aşpazlar Səlfinaz Eyvazova, Sevinc Əliyeva, Mətanət Əhmədova və Nuridə Səfərova milli təamların hazırlanması zamanı gigiyenik qaydalara əməl olunmasına xüsusi diqqət yetirirlər. Ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını nəzərə çatdırdı.

**baş leytenant Nigar Ağayeva**

# VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN HƏRBİ QULLUQÇU

64412 saylı hərbi hissənin nümunəvi xidməti ilə seçilən, nizam-intizamlı hərbi qulluqçularından biri olan gizir Fidan Məmmədova 1996-cı il iyulun 31-də Bakı şəhərində doğulub. Orta təhsilini Bakı şəhəri, Sabunçu rayonu, Ramana qəsəbəsində yerləşən 78 nömrəli tam orta məktəbdə alıb. 2013-cü ildə Bakı Slavyan Universitetinin tərcümə fakültəsinə qəbul olunub. 2017-ci ildə ali təhsilini tamamladıqdan sonra 2018-ci ilin iyul ayına kimi öz ixtisasına uyğun olaraq müxtəlif tərcümə mərkəzlərində çalışıb. 2018-ci ilin iyul ayından Daxili Qoşunların 64412 saylı hərbi hissəsində xidmətə başlayıb. Hazırda hərbi hissənin qərargahında məsul icraçı-texnik (kargüzarlıq üzrə) vəzifəsində xidmətini davam etdirir. Qısa müddət ərzində xidmət etməsinə baxmayaraq, hərbi hissə komandanlığı tərəfindən bacarıqlı, savadlı, vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə olunur. Xidmətin aparılmasına dair müvafiq əmr, sərəncam, göstəriş və təlimatların tələblərini bilir, ciddi şəkildə onlara əməl edir.



Gizir F.Məmmədova bildirdi ki, işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında kargüzarlığın aparılmasına dair Qaydalar"a əsasən təşkil edir: "Gündəlik olaraq, Daxili Qoşunların Baş İdarəsindən daxil olan sənədlər uçot jurnallarında qeydiyyata alınır, hərbi hissə komandanlığına məruzə üçün hazırlanır. Həmçinin, qeyri-məxfi kargüzarlıq üzrə daxil olan bütün əmr, direktiv, göstəriş və digər sənədlər də vaxtlı-vaxtında, dəqiqliklə qeydiyyatdan keçirilir və icraçılara çatdırılır. Sənədlərin inzibati hissədən qeydiyyatsız verilməsi qəti qadağandır. Bununla yanaşı, icraçılar tərəfindən sənədlərin vaxtında icraya götürülməsi nəzarətdə saxlanılır, düzgün icra edilmiş sənədlərin vaxtında inzibati hissəyə qaytarılması tələb olunur və sənədlər qəbul edilərkən icra barədə qeydiyyatın aparılmasına da diqqət yetirilir".

Hərbi qulluqçumuzla söhbət zamanı məlum oldu ki, hissə komandiri tərəfindən imzalanmış ümumi və nizami hissə üzrə əmrləri qeydiyyata almaq, vaxtı keçmiş sənədləri məhv edilməsi üçün hazırlamaq da onun vəzifələridir. Məsul icraçı-texnik gizir F.Məmmədova əmrləri arxivə təhvil verməək üçün hazırlayır, yuxarı instansiyalardan daxil olan sənədlərin icraçılar tərəfindən vaxtında inzibati bölməyə qaytarılmasına nəzarət edir. Daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının əmrlərinin surətləri isə inzibati hissədə saxlanılan işlərə tikilir və bu barədə jurnallarda müvafiq qeydlər aparılır.

Vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuza bundan sonra da xidmətində uğurlar arzu edirik.

**kapitan Xədicə Hacızadə**

## Böyük Britaniya "Boxer" ZTR üçün sifarişini artırıb

Britaniya qoşunları daha çox yeni zirehli transportyor (ZTR) alacaq.



"Poliqon" xəbər verir ki, Böyük Britaniya Müdafiə Nazirliyinin mətbuat xidməti "Boxer" ZTR üçün sifarişin artırıldığını açıqlayıb.

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

Xatırladaq ki, 2019-cu ildə Böyük Britaniya 523 ədəd "Boxer" ZTR-i sifariş edib. İndi isə əlavə olaraq 100 ədəd texnika alınacaq. Maşınlar Almaniya ilə birgə istehsal olunacaq, gələcəkdə Britaniyanın istehsal və xidmətdəki payı daha da artacaq. Razılaşmanın dəyəri 2,8 milyard funt sterling olaraq qiymətləndirilir.

## ASFAT şirkəti AKHİSAR patrul gəmisinin inşasına başlayıb

Türkiyənin ASFAT şirkəti Dəniz Patrul Gəmisi (ADKG) layihəsi çərçivəsində qabaqcıl texnologiyalarla TCG AKHİSAR adlı ilk gəminin inşasına başlayıb.



ASFAT şirkətindən "Poliqon"a verilən məlumata görə, TCG AKHİSAR patrul gəmisinin 2023-cü ildə Türkiyə Hərbi Dəniz Qüvvələrinə təhvil verilməsi planlaşdırılıb.

Uzunluğu 99.56 metr, eni 14.42 metr, sürəti 24 kts, yer tutumu isə 2300 ton olan gəmidə helikopter və pilotsuz uçuş aparatları üçün eniş-qalxış meydançası olacaq.

## Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin komandanlığı mayor Pərviz Qocayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000